# HAQQ ƏDALƏT PARTİYASI

## ƏHƏMİYYƏTLİ UÇOT SİYASƏTİ VƏ İZAHLI QEYDLƏR.

1. **Giriş.**

Hazırki maliyyə hesabatı 01.01.2024 - 31.12.2024-ci il üzrə AR Nazirlər Kabinetinin 03.08.2023-cü il tarixli 262 nömrəli qərarı ilə təsdiq edilmiş "Siyasi partiyanın maliyyə hesabatının forması, məzmunu və təqdim edilməsi Qaydası"na uyğun olaraq **Haqq Ədalət Partiyası** (irəlidə Partiya adlanacaq) üçün tərtib edilmişdir.

2. **Partiya haqqında ümumi məlumatlar.**

Haqq Ədalət Partiyası (HƏP) Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin 15.10.2021-ci il tarixli (Qeydiyyat №1121-Pİ-0063) Qeyri-Kommersiya Hüquqi Şəxsinin Dövlət Qeydiyyatı haqqında Şəhadətnaməsi ilə dövlət qeydiyyatına alınmışdır.
Mülkiyyət növü **xüsusi**

Qanuni təmsilçi - **Sədr: Əli Binnət oğlu İnsanov**

Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin 04.05.2023-cü il tarixli Qeyri-Kommersiya Qurumunun Vergi Uçotu haqqında Şəhadətnamə №(VÖEN) 1506370551 ilə vergi uçotuna alınmışdır. HƏP-in başlıca siyasi məqsədi insan hüquq və azadlıqlarını möhkəm təminat altına almaq, azad fərdin xoşbəxtliyə çatmasının təminatını yaratmaq, sosial rifah içində olan ədalətli, açıq cəmiyyət qurmaq, liberal dəyərlərə, demokratiya və insan haqları, siyasi plüralizm, qanunun aliliyi, azad bazar iqtisadiyyatı və sosial ədalət prinsiplərinə əsaslanan, müstəqil, azad və demokratik, dünyəvi hüquqi dövlət qurmaq, dinc, demokratik və bölünməz Yeni dünya birliyində yer almaqla etibarlı beynəlxalq təhlükəsizlik təminatı almaqdır.

Hesabat dövrü ərzində işçilərin sayı 1 (bir) nəfər olmuş, işçilər ictimai əsaslarla fəaliyyət göstərmişdir.

3. **Maliyyə hesabatlarının elementləri**

Maliyyə vəziyyəti haqqında hesabatın elementləri aktiv, öhdəlik və kapitaldan ibarətdir ki, hesabat dövrü ərzində yalnız üzvlük haqqı olaraq gəlir və xərclər qeyd olunmuşdur.

Maliyyə fəaliyyətinin nəticələri haqqında hesabatda gəlir və xərclər öz əksini tapır. Hesabat dövrü üzrə gəlir üzvlük haqqı olaraq bank hesabına mədaxil edilmiş vəsait hesabına yaradılmışdır. Üzvlük haqqı olaraq bank hesabına köçürülmüş vəsait siyasi partiyanın saxlanmasına və informasiya təminatına çəkilən xərclər üzrə istifadə edilmişdir.

4. **Gəlirin tanınması**

Gəlir tanıma meyarlarına uyğun olaraq tanındıqdan və qiymətləndirildikdən sonra uçota alınmaqla partiyanın maliyyə fəaliyyətinin nəticələri haqqında hesabatda əks etdirilir.

2 nömrəli forma üzrə siyasi partiyanın gəlirləri 1045 manat üzvlük haqqı olaraq formalaşmışdır.

Əsas əməliyyat gəliri üzvlük haqqı olduğundan vergiyə cəlb olunmur.

5. **Xərclərin tanınması**

2 nömrəli forma üzrə siyasi partiyanın xərcləri siyasi partiyanın saxlanmasına və informasiya təminatına çəkilən xərclərdən ibarət olmaqla 1045 manat təşkil etmişdir və aşağıdakı qaydada təsnifləşdirilir.

- Ofisin icarəsi ilə bağlı xərclər – 360 manat,

- İnternet xərcləri – 49 manat,
- Telefon xərcləri – 35 manat,
- İstilik sistemi ilə bağlı xərclər – 443 manat,
- Elektrik enerjisindən istifadəyə görə - 158 manat

Cəmi xərclər – 1045 (bir min qırx beş) manat

**6. Uçot siyasətinin təqdimatı**

Uçot siyasətinin bu maliyyə hesabatının tərtib edilməsində istifadə olunan əsas müddəaları Nazirlər Kabinetinin 03.08.2023-cü il tarixli 262 nömrəli qərarı ilə təsdir edilmiş "Siyasi partiyanın maliyyə hesabatının forması, məzmunu və təqdim edilməsi" Qaydasına müvafiq olaraq aidiyyətli formalar üzrə göstərilmişdir.

**7. Partiyanın hüquqi ünvanı:**

Hüquqi ünvan – Bakı şəhəri, Nərimanov rayonu, Azadlıq pr., ev 151, mənzil 62 (AZ 1106)
Yeni qaydalarla: Bakı şəh., Nərimanov rayonu, Azadlıq pr., 267, M1, mənzil 1

Faktiki ünvan – Bakı şəhəri, Binəqədi rayonu, Azadlıq prospekti 192.

**8. Əməliyyat valyutası:**

Hazırki maliyyə hesabatındakı məbləğlər Azərbaycan manatı (AZN) ilə ifadə olunur

**Haqq Ədalət Partiyasının sədri:** **Əli Binnət oğlu İnsanov**

**Baş mühasib** ______________________

**"26" fevral 2025-ci il**